*Dos.Dr.* **YUSİF ALI AFŞAR**
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialının direktoru,***

***

Çox hörmətli konfrans iştirakçıları, dəyərli ziyalılar, alimlər! Abdulla Şaiq irsinin araşdırıcıları və Abdulla Şaiq işığına toplaşmış dəyərli əməkdaşlar!

Bu gün belə bir konfransın keçirilməsində texniki dəstək verməyimizdən şərəf duyuruq. Bütün konfrans iştirakçılarına ADP-nin Quba filialının kollektivi adından salamlar çatdıraraq uğurlar arzulayıram. Həmçinin, türk dünyasının qarşıdan gələn bahar bayramını – Novruz bayramını təbrik edirəm. Azərbaycan uşaq ədəbiyyatının banilərindən biri ədəbiyyatşünas, tədqiqatçı Abdulla Şaiqin 140 illiyinin "Arazdan Turana" adı ilə onlayn formada keçirilməsi, böyük şairin irsinin öyrənilməsi çox önəmli və əhəmiyyətlidir. Burada öz çıxışları ilə Abdulla Şaiq yaradıcılığına işıq salan dəyərli ziyalılarımızın fikirləri yeni tədqiqat istiqamətlərinin ortaya qoyulmasına səbəb olacaqdır. Böyük şairin əsərlərində tərbiyə, təhsilə bağlılıq, insanlığa sevgi, vətənə məhəbbət ideyaları əsas qırmızı xətt olaraq keçdikdə, ali təhsil müəssisəsi olaraq, bu cür tədbirlərin, konf-



ransların keçirilməsinin bizim tələbələrimiz üçün önəmli və əhəmiyyətli olduğunu düşünürük. Vaxt almadan bu konfransda çıxış edən hər kəsə minnətdarlığımı bildirirəm. Deməli ki, biz böyük Abdulla Şaiqin yaradıcılığı, qardaşı, onların bu günə kimi gizli olan tərəfləri ilə bağlı, ustadım Akif Aşırlının çox gözəl söylədiyi kimi, bəzi məsələləri bilməmişik. Bu da bizim ədəbiyyat tariximizdə bəzi üstüörtülü mətləblərin hələ də olması deməkdir. Və buna görə mən belə bir tədbirin ərsəyə gəlməsində Qənirə xanıma, Ədəbiyyat İnstitutunun rəhbərliyinə, İsa müəllimə minnətdarlığımı bildirirəm. Biz də bu konfransa dəstək verdiyimizə görə mənəvi qida aldıq. Bir daha minnətdarlığımı bildirirəm.